DÜNYA

# Niderland Ermənistana Avropa bazarında gül satışına kömək edəcək

33 dəqiqə öncə




Gümrü şəhərində qızılgül istixanası

Niderland Ermənistanın gül istehsalçılarının Avropa İttifaqı (Aİ) bazarına çıxışını dəstəkləyəcək. Bunu Niderlandın xarici işlər naziri **Tom Berendsen** "X" sosial şəbəkə hesabında paylaşıb.

Nazir qeyd edib ki, gülçülük üzrə "Royal FloraHolland" konsorsiumu erməni istehsalçılarına öz ticarət platformasına, həmçinin Aİ və onun hüdudlarından kənardakı alıcılar şəbəkəsinə çıxış imkanı verəcək.

Ermənistanın baş naziri **Nikol Paşinyan** iyunun 7-də kənd təsərrüfatı məhsullarının Ermənistandan Avropa İttifaqına gömrük rüsumu olmadan ixrac ediləcəyini bildirib. Artıq iyunun 6-da Ermənistandan qızılgüllərdən ibarət ilk partiya Latviyaya çatdırılıb.

Avropa Komissiyasının sədri **Ursula fon der Lyayen** iyunun 4-də Brüsselin Ermənistan üçün ilkin mərhələdə ən azı 50 milyon avro həcmində maliyyə yardımı paketi hazırladığını bəyan edib. Bu addıma Moskvanın Yerevana tətbiq etdiyi ticarət məhdudiyyətləri səbəb olub.

Bundan əvvəl Rusiya hakimiyyəti Yerevanın Aİ ilə yaxınlaşmasına cavab olaraq Ermənistandan tərəvəz, meyvə, quru meyvə, balıq və balıq məhsulları, gül, "Cermuk" mineral suyu və alkoqollu içkilərin idxalını qadağan etmişdi. Paşinyan isə cavabında Yerevanın Rusiyaya ixracı qadağan edilən məhsulları alternativ olaraq Aİ bazarına yönəldəcəyini vurğulayıb.

4 iyun

## Avropa İttifaqı Ermənistana 50 milyon avroluq yardım paketi hazırlayır

Avropa İttifaqı (Aİ) Ermənistan üçün maliyyə yardımı paketi hazırlayır. İlkin mərhələdə yardımın həcmi ən azı 50 milyon avro olacaq. Bu barədə iyunun 4-də Avropa Komissiyasının sədri **Ursula fon der Lyayen** məlumat verib.

"Reuters" agentliyi yazır ki, bu qərarın səbəbi Rusiyanın Ermənistana qarşı tətbiq etdiyi ticarət məhdudiyyətləridir. Fon der Lyayen həmin tədbirləri "iqtisadi məcburetmə" adlandırıb və onların qəbuledilməz olduğunu bildirib.

Komissiya sədri qeyd edib ki, bir gün əvvəl Ermənistanın baş naziri Nikol Paşinyan ilə danışıqlar aparıb.

**"Moskva Ermənistan məhsullarına ixrac məhdudiyyətlərini uzatmaqla iqtisadi münasibətlərdən siyasi təzyiq vasitəsi kimi istifadə edir. Biz bu taktikanı çox yaxşı tanıyırıq. Məhz buna görə Avropa Ermənistanı qətiyyətlə dəstəkləyir. Aİ xüsusi dəstək paketi hazırlayır"**, – fon der Lyayen bildirib.

Rusiya Yerevanın Aİ ilə yaxınlaşmasına cavab olaraq Ermənistandan Rusiyaya müxtəlif tərəvəzlərin, meyvələrin, balıq və balıq məhsullarının, güllərin, "Cermuk" mineral suyunun və spirtli içkilərin idxalını qadağan edib.

**Paşinyan** buna cavab olaraq bildirib ki, Yerevan Rusiyaya ixracı qadağan olunan məhsulları Aİ bazarına çıxaracaq.




2 iyun

## Aİ Ermənistan üçün bazarlarını açır

Avropa İttifaqı (Aİ) iyunun 2-də Ermənistan hökumətinə Rusiyanın artan iqtisadi təzyiqi ilə bağlı daha çox yardım vəd edib. Yerevanın Aİ-yə üzvlük istəyinə cavab olaraq,

xüsusilə iyunun 7-də keçiriləcək parlament seçkiləri ərəfəsində Moskva təzyiqləri gücləndirib və Ermənistandan idxalı əsasən qadağan edib.

Bu vəziyyətdə Aİ-nin genişlənmə üzrə komissarı **Marta Kos** Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla danışıb. Ermənistan Xarici İşlər Nazirliyinin məlumatına görə, tərəflər Aİ-Ermənistan ticarətini artırmaq üçün xüsusi mexanizmləri də müzakirə ediblər. Kos Rusiyanın artan iqtisadi təzyiqi qarşısında Aİ-nin Ermənistanla həmrəyliyini bir daha vurğulayıb.

Komissar sosial şəbəkə X-də yazıb: **"Biz qısa müddətdə Aİ-nin Ermənistana dəstəyini artırmağın yollarını axtarırıq. Həmçinin Cənubi Qafqazla və region daxilində ticarət, eləcə də enerji əlaqələrini gücləndirmək, Ermənistanın yaxın qonşuluğu ilə iqtisadi əlaqələrini dəstəkləmək üçün işimizi sürətləndirəcəyik".**

Azadlıq Radiosunun erməni xidmətinin xatırlatdığına görə, Aİ-nin iki yüksək vəzifəli rəsmisi – Antoniu Koşta və Ursula fon der Lyayen mayın 5-də Yerevanda keçirilən Avropa Siyasi Birliyi sammitindən bir gün sonra baş nazir Nikol Paşinyanla görüşdə Ermənistana əlavə iqtisadi yardım vəd etməmişdilər. Moskva bu toplantılara qəzəblə reaksiya verərək Paşinyan hökumətini Rusiya əleyhinə Aİ-nin tərəfini tutmaqda ittiham etmişdi.

## Rusiyanın qadağaları

Rusiya prezidenti **Vladimir Putin** mayın 9-da bildirib ki, Yerevan mümkün qədər tez seçim etməlidir: ya Aİ üzvlüyünə doğru irəliləməli, ya da Moskvanın rəhbərlik etdiyi Avrasiya İqtisadi İttifaqında (AİI) qalmalıdır. Sonuncu blok Ermənistan ixracatçılarının Rusiya bazarına gömrük rüsumları olmadan çıxışını təmin edir. Bu bəyanatdan təxminən iki həftə sonra Rusiya hakimiyyəti Ermənistandan kənd təsərrüfatı məhsullarının, mineral suların və spirtli içkilərin idxalını qadağan etməyə başlayıb.

Ötən il Ermənistanın xarici ticarət dövriyyəsində Rusiyanın payı 35.8 faiz, Aİ-nin payı isə 11.7 faiz təşkil edib. Rusiyanın embarqosu bir çox erməni fermerlərinə, aqrobiznes firmalarına və spirtli içki istehsalçılarına xüsusilə ağır zərbə vura bilər.



Nikol Paşinyan Şirak əyalətində seçki kampaniyası zamanı çıxış edir

Baş nazir **N.Paşinyan** iyunun 2-də keçirilən seçki mitinqində istehsalçıları sakitləşdirməyə çalışıb. O, hökumətin artıq Avropada onlar üçün yeni ixrac bazarları tapdığını bildirsə də, detallar barədə danışmayıb.

Seçkilərdə iştirak edən üç əsas müxalifət qrupundan birinin lideri, keçmiş prezident **Robert Koçaryan** Paşinyanın vədlərini rədd edib: **"Avropalı fermerlər heç kimi öz bazarlarına buraxmırlar. Rusiya isə Ermənistanın Avropa İttifaqına gedən yolunu maliyyələşdirməyə hazır olmadığını nümayiş etdirir".**

## Aİ-dən Yerevana güzəştli ticarət şərtləri gözlənilir

AzadlıqRadiosu Brüsseldəki mənbələrinə istinadən xəbər verir ki, Avropa Komissiyasının prezidenti **fon der Lyayen** və **Paşinyan** bu gün – iyunun 3-də Aİ-nin Ermənistana dəstəyini müzakirə etmək üçün telefonla danışacaqlar. Məlumata görə, Aİ Yerevana maliyyə yardımı göstərməyə hazırlaşır, lakin onun dəqiq məbləği hələ müəyyən edilməyib.

Eyni mənbələrin bildirdiyinə görə, maliyyə yardımından əlavə, Brüssel Ermənistan üçün ticarət sektorunda güzəştli şərtlər yaratmaq niyyətindədir. Söhbət Muxtar Ticarət Tədbirlərindən (MTT) gedir. Bu rejim Ermənistandan bəzi məhsulların Avropa bazarına gömrük rüsumları və kvotalar olmadan daxil olmasını nəzərdə tutur.

Belə bir rejim Rusiyanın genişmiqyaslı işğalından aylar sonra, 2022-ci ilin iyununda Ukraynaya münasibətdə tətbiq edilib. Moldova isə 2008-ci ildən Muxtar Ticarət

Tədbirlərindən istifadə edir. 2014-cü ildə Rusiya Moldova şərablarının, meyvələrinin və ət məhsullarının idxalını qadağan edəndə Aİ bu imtiyazları daha da genişləndirmişdi.

Ermənistan hökuməti illər əvvəl Brüssel ilə bu güzəştli rejimlə bağlı danışıqlara başlayıb. Ölkənin iqtisadiyyat naziri **Gevorq Papoyan** 2024-cü ildə bildirmişdi ki, "müzakirələr asan getmir". İndi isə Avropa Komissiyasının bu istiqamətdə konkret addım atmağı planlaşdırdığı bildirilir.

“Azatutyun” qeyd edir ki, Muxtar Ticarət Tədbirlərinin tətbiqi təsdiqlənərsə, Avropa standartlarına cavab verən erməni məhsulları 450 milyon istehlakçısı olan Aİ bazarına birbaşa daxil ola biləcək.

## Buna da bax:

Rusiya Ermənistanın quru meyvə və kartofuna da qadağa qoydu

Rusiya və müttəfiqlərindən Ermənistana referendum ultimatumu: 'Ya Aİ, ya AİI'

Rusiya Ermənistandan balıq idxalını məhdudlaşdırıb

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur